DOI: http://www.doi.org/10.36719/2663-4619/66/53-56

**Məhbubə Sarxan qızı Fətullayeva**
AMEA H.Ə.Əliyev adına Coğrafiya İnstitutu
elmi işçi
solmaz-isaq@mail.ru

# QARABAĞ AZƏRBAYCANDIR – TARİXLƏ MÜASİRLİYİN QOVUŞDUĞU DİYARIN MİLLİ-TARİXİ MƏDƏNİYYƏTİ

***Açar sözlər:*** *Qarabağ, mədəniyyət abidələri, Şuşa qalası, Qarabağ atları, millli-tarixi mədədniyyət*

**Karabakh is Azerbaijan - the national-historical culture of the country, where history and modernity meet**

**Summary**
The article tells about the history of the Karabakh region, its cultural monuments, rich literature, art and musical culture. Considered the cradle of Azerbaijani culture, Karabakh is described as a land where history and modernity meet, describing the richness of the region's beautiful nature, climate and natural resources. It is explained that the cultural values of the ancient land are the result of the centuries-old traditions of the people of this land, the mysterious nature of the region, the wealth of natural resources, which has a positive effect on artistic thinking and creativity. Thanks to the work of the Karabakh people, the folk art of Karabakh, which is widely used in the life of the region, has a long and rich history.
***Key words***: *Karabakh, cultural monuments, Shusha fortress, Karabakh horses, national-historical culture*

## Giriş

Qarabağ! Azərbaycanımın dilbər guşəsi, musiqi beşiyi. Üzeyir, Cabbar, Xan vətəni, istedadlar diyarı! Bu səfalı torpaq xalqına Bülbül, Müslüm Maqomayev, Fikrət Əmirov, Xan Şuşinski, Sara Qədimova, Tükəzban Ismayılova, Qədir Rüstəmov kimi ustad sənətkarlar, şairə Nətavan vermişdir. Qarabağda dünyaya gələn hər kəsin mayası ana südü kimi musiqidən yoğrulmuşdur. Qarabağın təbiəti də bir musiqidir, ahəng tutub gözəlliyə meydan oxuyub, füsunkarlığı ilə ürəkləri fəth edir. Əsrlər boyu Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsi olmuşdur. Bu gözəl və qədim torpaqda insanlar mehribancasına yaşamış, qurub yaratmışlar.

**Etimologiyası.** Qarabağ Azərbaycanın ən qədim tarixi vilayətlərindən biridir. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağın adı Azərbaycan dilindəki "qara" və "bağ" sözlərindən əmələ gəlmişdir. "Qara" və "bağ" söz birləşməsi Azərbaycan xalqının özü qədər qədim tarixə malikdir. Dünyanın hər yerində bu söz birləşməsinin Azərbaycanın konkret ərazisinə aid edilməsi də danılmaz həqiqətdir. Azərbaycan xalqının öz doğma torpağının bir parçasına verdiyi "Qarabağ" sözü ilk mənbələrdə hələ 1300 il bundan əvvəl (VII əsrdən!) işlənmişdir. Qarabağ əvvəllər bir tarixi-coğrafi anlayış kimi konkret məkanı bildirmiş, sonra isə Azərbaycanın geniş coğrafi ərazisinə aid edilmişdir. "Qarabağ"ın Azərbaycanın konkret bir vilayətinin, bir bölgəsinin adı kimi formalaşması tarixi onun etimologiyasının daha elmi şəkildə izahına imkan verir. Çünki Azərbaycan dilində (həmçinin başqa türk dillərində) "qara"nın rəngdən başqa "sıx", "qalın", "böyük", "tünd" və başqa mənaları da vardır. Bu baxımdan, "Qarabağ" termini "qara bağ", yəni "böyük bağ", "sıx bağ", "qalın bağ", "səfalı bağ" və s. mənası kəsb edir. Beləliklə, Qarabağın özü kimi "Qarabağ" sözü də Azərbaycan xalqına məxsusdur (9).

**Tədqiqatın şərhi.** Kiçik Qafqazın cənub-şərq hissəsində yerləşən bu rayona Cəbrayıl, Füzuli, Xocavənd, Ağdam, Xocalı, Tərtər, Şuşa, Xankəndi əraziləri daxildir. Relyefi, əsasən, dağlıqdır. Yuxarı Qarabağ iqtisadi-coğrafi rayonunun şimal hissəsini Qarabağ silsiləsinin şimal-şərq ətəkləri və Murovdağ silsiləsinin (Kiçik Qafqazın ən yüksək zirvəsi Gamış dağı (3724 m) cənub yamacları, mərkəzi, qərb və cənub hissələrini Qarabağ silsiləsinin şərq yamacları (Qızqala dağı (2843 m), Qırxqız dağı (2827 m), Böyük Kirs dağı (2725 m), şimal-şərq və şərq hissəsini Qarabağ və Mil düzənliklərinin qərb kənarları tutur. Cənub və cənub-şərqdə İran İslam Respublikası ilə həmsərhəddir. Murovdağ və Qarabağ silsilələri Qarabağ və Mil düzlərinə tərəf alçalan bir neçə yan qola ayrılmışdır. Silsilə və onların yan qollarının çaylarla parçalanması nəticəsində dərin və sıldırım yamaclı dərələr əmələ gəlmişdir. Orta dağlıqda çay dərələrinin genişləndiyi sahələrdə dağarası çökəkliklər vardır.

Geoloji quruluşunda kiçik Qafqazın ikinci dərəcəli tektonik elementlərindən Murovdağ, Qarabağ, Ağdam antiklinoriumları və onları bir-birindən ayıran Torağayçay və Xocavənd sinklinoriumları əsas yer tutur. Antiklinoriumların tağı Orta Yuranın vulkanik süxurları, tağın uzaq qanadları və onları

mürəkkəbləşdirən sinklinal strukturlar isə Üst Yuranın əhəngdaşı, Təbaşirin vulkanogen və çökmə süxurlarından təşkil olunmuşdur. Onlar da bəzən intruziyalarla kəsilir (1).

Zəngin təbiətə malik olan Qarabağ ərazisində 2 000-dən çox bitki növünə rast gəlinir. Düzən yerlərdə yovşan, yovşanlı-şoranotlu yarımsəhra, dağ ətəklərində daşdayan, şibyə, yovşanlı-darağotlu bozqır və yarımbozqır bitkiləri, dağ yamaclarında kolluqlar, enliyarpaqlı meşələr (fıstıq, palıd və s.) geniş yer tutur. Dəniz səviyyəsindən 2000-2300 m-dən yüksəklikdə subalp və alp çəmənlikləri mövcuddur. Nadir təbiət incilərini qorumaq üçün ərazidə qoruq və yasaqlıqlar yaradılmışdır. Bəsitçay, Qaragöl, Laçın, Qubadlı, Daşaltı, Arazboyu kimi qoruq və yasaqlıqlarda təbiət inciləri qorunur.

Qarabağ bölgəsi nəinki, Azərbaycanın, həmçinin dünya ölkələrinin bir çox bölgələrindən fərqli olaraq daha qədim tarixə malik olan bir ərazidir. Məhz, Qarabağ bölgəsi özünün tarixi, maddi-mədəniyyət abidələri, zəngin ədəbiyyatı, incəsənəti və musiqi mədəniyyəti ilə zəngindir. Qarabağın bədii təfəkkür və yaradıcılığına bölgənin gözəl təbiəti, iqlimi, təbii sərvətlərinin zənginliyi də böyük təsir göstərmişdir. Qarabağlıların zəngin yaradıcılıq çeşməsində ən mühüm yerlərdən birini onun həyat və məişəti, gündəlik güzəranı ilə bağlı olan xalq sənətləri tutur (3).

Təbiidir ki, qarabağlıların məişət xüsusiyyətləri, estetik zövqü, bir sözlə milli siması, mənliyi bu sənət növündə özünü xüsusilə parlaq şəkildə büruzə verəcəkdi. Əbəs yerə olmayaraq indi dünyanın ən zəngin muzeylərində Qarabağ xalq sənətkarlığının timsalında Azərbaycan xalq sənətkarlığının bir çox gözəl nümunələri ilə rastlaşmaq olur. Londonun Viktoriya və Albert, Parisin Luvr, Vaşinqtonun Metropoliten, Vyananın, Romanın, Berlinin, İstambulun, Tehranın, Qahirənin zəngin muzey kolleksiyalarına baxarkən orada Qarabağ ustalarının bacarıqlı əlləri ilə yaradılmış sənət nümunələrini görmək olar.

Qarabağlıların əməyi sayəsində yaranıb bölgənin həyat və məişətində geniş istifadə edilən Qarabağ el sənətinin böyük və zəngin bir tarixi var. Qarabağdan tapılmış qab-qacaq, silah və bəzək nümunələri tək bir tarixi fakt kimi deyil, həm də onu yaradan sənətkarın ustalıq bacarığından məlumat verən qiymətli mənbədir. Metaldan düzəldilmiş sənət nümunələri içərisində elələri vardır ki, onların üzərində olan bəzək və təsvirlərlə biz o dövrdəki insanların adət-ənənələri, dini görüşləri və hətta geyimləri ilə yaxından tanış ola bilərik (9).

Qarabağ xalq yaradıcılığının tarixi, etnoqrafik və bədii xusüsiyyətləri öz əksini geyimlərdə tapır. Bu xüsusiyyət həm müəyyən formalı geyim və onun bəzəklərində və həm də bədii tikmə, toxuma və toxuculuqda özünü büruzə verir. Arxeoloji qazıntılar vasitəsilə külli miqdarda qədim maddi mədəniyyət nümunələrinin aşkar edilməsi Qarabağın maddi və mənəvi mədəniyyət tarixini öyrənməyə imkan vermişdir. Təsadüfi deyil ki, qədim və zəngin tarixə malik Azərbaycan xalqına məsxsus olan bu bölgə dünyanın bir sıra alimləri tərəfindən maraqla qəbul edildiyi kimi, eyni zamanda bu ulu diyarın tarixinə saxta yollarla sahiblənmək istəyən avantürüstlərin də diqqətindən yayınmamışdır.

Qarabağdan aşkar edilmiş hər bir arxeoloji material, başqa sözlə maddi mədəniyyət nümunəsi olan irili-xırdalı bütün əşyalar – tikinti materialları, məişət əşyaları, süfrə qab-qacaqları, bəzək əşyaları hər biri həm özünün istehsal olunması baxımından, həm də onların üzərindəki müxtəlif qliptik, teoreftik təsvirlərin, naxışların həkk olunması baxımından qarabağlıarın həyatında özünə yer tutan qədim mədəniyyətin xarakterik cəhətləri, səviyyəsi, inkişaf xüsusiyyətlərinin təcəssümüdür. Misdən, tuncdan, qızıldan düzəldilmiş ev avadanlığının və zinət əşyalarının üzərinə həkk olunmuş müxtəlif rəsmlər Qarabağda hələ qədim zamanlarda təsviri sənətin mövcud olduğunu sübut edir (5).

Müxtəlif dövrlərdə Azərbaycanın Qarabağ xalçaçılıq məktəbində toxunulmuş xalçalar bu günədək öz gözəlliyi ilə insanları valeh edir. Onların bir çoxu dünyanın məşhur muzeylərində mühafizə olunur. Zəngin mədəni irsə malik olan Qarabağ bölgəsi musiqi, muğam diyarı kimi də məşhurdur. Azərbaycan musiqi mədəniyyəti xəzinəsini öz nadir inciləri ilə zənginləşdirən Qarabağ musiqisinin çoxəsrlik ənənələri vardır. Qarabağ musiqi sənətində muğamlar, xalq mahnıları, rəqslər, aşıq yaradıcılığı da özünəməxsus yer tutur.

Təsadüfi deyildir ki, Qarabağ milli musiqisinin təməl daşı, onun bünövrəsini muğamlar təşkil edir. Qarabağlı ədəbiyyat nümayəndələrinin yaratdıqları ədəbi əsərlər Azərbaycan mədəniyyəti xəzinəsində özünəməxsus şərəfli yer tutur. Müxtəlif dövrlərdə Qarabağ xalçaçılıq məktəbində toxunulmuş xalçalar bu günədək öz gözəlliyi ilə insanları valeh edir. Onların bir çoxu dünyanın məşhur muzeylərində mühafizə olunur.

Ərazidə aparılmış arxeoloji qazıntıların nəticələri göstərmişdir ki, Qarabağda yaşamış qədim insanlar tarix boyu şərəfli yaradıcılıq yolu keçərək çoxsaylı mədəniyyət əsərləri yaratmışlar və onlardan biri də memarlıqdır. Öz kökləri ilə ta qədim dövrlərə gedib çıxan Qarabağ təsviri sənət ənənələri özündə neçə-neçə nəsillərin bədii təcrübəsini yığıb saxlamışdır. Buraya Kəlbəcər, Ağdam, Laçın rayonlarındakı qayaüstü rəsmlər, zəngin bəzəyə malik əmək alətləri və məişət əşyaları, öz gözəlliyi və rəngarəngliyi ilə nadir olan xalçaçılıq sənəti, zərgərlik əşyaları və s. daxildir. Həmçinin öz nəfisliyi və zərifliyi ilə seçilən memarlıq abidələrini-məscidləri, məqbərələri, sarayları, kilsələri, məbədləri və kaşı naxışlarını da xatırlamamaq

mümkün deyil. Bütün bunlar Azərbaycan xalqının bədii mədəniyyətinin özünəməxsus «genofond»unu yaratmış, onun zəngin irsini təşkil etmişdir. Həmin irs XIX əsrin ortalarından yeni tendensiyalarla daha dolğunlaşmışdır. Bu dövrün əsas nümayəndələri kimi istedadlı fırça ustaları Mir Mövsüm Nəvvab, şair və rəssam Xurşudbanu Natəvan və bir çox digərləri çıxış edirdi. Öz zənginliyinə və öz unikallığına görə Qarabağ mədəniyyəti Azərbaycan mədəniyyətinin aparıcı və ayrılmaz tərkib hissəsi olmuşdur və olacaqdır.

Azərbaycanın mədəniyyət və incəsənət beşiyi sayılan **Şuşa** Qarabağın döyünən qəlbidir. Şuşa qalası və bir vaxtlar öz möhtəşəmliyi ilə seçilən Yuxarı Gövhər ağa məscidi burada yerləşir. Azərbaycanın mədəniyyət tarixində mühüm rol oynayan şəxsiyyətlər – müsəlman Şərqində ilk operanın müəllifi, Azərbaycan himninin bəstəkarı Üzeyir Hacıbəyli və sonuncu Qarabağ xanının qızı, şairə Xurşidbanu Natəvan bu şəhərdə anadan olmuşlar. Qarabağın digər tarixi şəhəri **Ağdam**, təəssüf ki, müharibə zamanı, demək olar, tamamilə dağıdılıb. Müharibədən əvvəl bu şəhər qeyri-adi memarlığa malik üçmərtəbəli Çay evi, nadir Çörək muzeyi ilə məşhurlaşmışdı. Bura həm də son illər Avropa və Çempionlar Liqasında çıxış edən “Qarabağ” futbol komandasının vətənidir (9).

Qarabağda həm də qızılı-qonur rəngli, öz etibarlılığı, dözümlülüyü ilə məşhur olan yaraşıqlı, vəfalı **Qarabağ atları** yada düşür. Bu cins atlar tarixən müxtəlif beynəlxalq sərgilərin mükafatını qazanıb. Hazırda Ağdam Atçılıq Zavodunda Qarabağ atları cinsinin qorunması üzərində işlər gedir. Qarabağda yerləşən tarixi kilsələr e.ə. III əsrdən eramızın VII əsrinə kimi indiki Azərbaycan ərazisində mövcud olmuş Qafqaz Albaniyası dövrünün yadigarıdır. V-VI əsrlərdə Laçın rayonu ərazisində Ağoğlan çayının sahilində inşa edilmiş **Ağoğlan monastırı** da Azərbaycanda alban memarlığının ən gözəl nümunələrindəndir. Daş sütunları, ensiz pəncərələri və tağ-tavanı möhkəm bazalt daşlarından tikilmiş monastıra xüsusi gözəllik verir.

Kəlbəcər rayonunun Vəng kəndi ərazisində yerləşən **Xudavəng monastır kompleksi** Azərbaycanın xristian memarlığına ən möhtəşəm abidələrindən hesab olunur. Xudavəng məbədinin apostol Fadeyin şagirdi Dadın şərəfinə tikildiyi güman olunur. Kompleksə məbədlə yanaşı, bir necə bazilika, təsərrüfat və yaşayış binaları, tövlə və qala divarları aiddir. Mehranilər sülaləsindən olan Xaçın knyazı Həsən Cəlalın oğlu Vaxtanq kompleksin ərazisində geniş tikinti işləri aparmış, Arzu xatun isə 1214-cü ildə əri Vaxtanqın və iki oğlunun xatirəsinə kompleksdə kilsə tikdirmişdir.

XII əsrdə Atabəylər dövlətinin hakimiyyəti dövründə Araz çayı üzərində inşa edilmiş **Xudafərin körpüləri** Qumlaq və Xudafərin kəndləri arasındakı iki möhtəşəm körpüdən ibarətdir. On beş tağlı böyük körpü hələ də keçmiş əzəmətini qoruyur. Digər körpünün isə cəmi üç tağı qalıb. Hər iki körpüdən orta əsrlərdə hakimiyyət uğrunda mübarizələr zamanı istifadə edilib, eyni zamanda bu körpülər İpək Yolu üzərindəki ticarət və mədəni əlaqələri asanlaşdırmaq baxımından mühüm rol oynayıb.

Azərbaycanın cənub-qərbində yerləşən Füzuli şəhəri yaxınlığındakı **Azıx mağarası** dünyada ən qədim insan məskənlərindən biridir: burada ilk insanların Paleolit dövründə məskunlaşdığı güman edilir. 1968-ci ildə azərbaycanlı paleontoloq Məmmədəli Hüseynov 350 000-400 000 il əvvəl mağarada yaşamış neandertal qadının alt çənə sümüyünü tapıb. İnsan yaşadığı mağaranın adına uyğun olaraq “Azıx adamı” adlandırılmışdır. Bu tapıntıya görə Azərbaycan “Avropanın ən qədim sakinləri” xəritəsinə daxil edilmişdir. Divarları əhəng daşından olan mağaranın sahəsi təxminən 8 000 $km^2$-dir. Burada uzunluğu 600 metrə çatan dəhliz mövcuddur (6).

Azərbaycanın Qarabağ bölgəsi qədim tarixi, zəngin maddi mədəniyyət abidələri, ədəbiyyatı, incəsənəti və musiqi irsi, eləcə də adət-ənənələri ilə fərqlənir. Bütün bunlar bədii təfəkkür və yaradıcılığa müsbət təsir göstərən bölgənin əsrarəngiz təbiətinin, təbii sərvətlərinin zənginliyinin nəticəsidir. Qarabağın mədəniyyət xəzinəsində bu elin insanlarının çoxəsrlik adət-ənənələri mühüm yer tutur.

2020-ci ildə 44-günlük müharibə nəticəsində 30 ilə yaxın davam edən işğal zülmündən şanlı Azərbaycan ordusu tərəfindən azad olmuş Qarabağ bu gün yenə də əvvəlki əzəmətini bərpa etdirir. Mədəniyyət Nazirliyi Azərbaycanın Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Ordumuz tərəfindən azad edilən Qarabağımızın təkcə abidələri və mədəniyyət infrastrukturunu deyil, eyni zamanda tarixən bu torpaqlarda mövcud olan mədəni ruhu və əhval-ruhiyyəni bərpa etmək məqsədilə böyük işlər görməyə start verilib.

## References

1. Akhundov N. Chronicles of Karabakh. Baku, Yazychi, 1989, 232 p.
2. Akhundov N. Karabakh and “Karabakh letters”. Karabakh letters, book two. Baku, Yazychi, 1991, p. 398-479.

3. Baharli M. Akhvalati-Karabakh: Karabakh letters. Second book. Compiled and prepared for publication by Professor N. Akhundov. Baku, Yazychi, 1991, p. 270-308.
4. Bakikhanov A. Gulustani-Iram. Baku, Mominin Publishing House, 2001, 287 p.
5. Evidence by Kh.A. New information about the founder of the Karabakh Khanate Panahali Khan // News, history, philosophy and law of the Academy of Sciences of the Azerbaijan SSR 1971, M1, p. 42-48.
6. Ahmad bey Javanshir. History of the Karabakh Khanate (from 1747 to 1805). Baku, Azerbaijan. Publishing house of the Academy of Sciences of the USSR, 1961, 101 p.
7. Ahmad bey Javanshir. 1747-1805 years of the Karabakh Khanate
8. Institute of Folklore (2012). Karabakh: Folklore is also history. Book I (samples of folklore collected in Agdam, Fizuli, Agjabad, Jebrail, Zangilan, Gubadli, Lachin and Kelbajar regions). Baku: Science and Education. p. 464.
9. www.virtualkarabakh. az

Göndərilib: 30.04.2021 Qəbul edilib: 06.05.2021